Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdim etdiyi, Dövlət Sahə Balansında qeydiyyata alınmış Siyəzən rayonu Dərəzarat tikinti daşı yatağı Siyəzən şəhərindən 11 km cənubda, Dərəzarat kəndindən 2 km cənub-qərbdə yerləşir.Yatağın ilkin ehtiyatı Azərbaycan Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi Elmi-Texniki Şurasının 1995-ci il 1 nömrəli protokolu ilə A-kateqoriyası üzrə 308 min $m^3$, B-kateqoriyası üzrə 994 min $m^3$, $C_1$-kateqoriyası üzrə 2414 min $m^3$, A+B+$C_1$-kateqoriyası üzrə 3716 min $m^3$ təsdiq edilmişdir. Yataq hal-hazırda ehtiyatdadır və Dövlət Balansında qeydə alınıb. Əhəngdaşları və onlardan alınan məhsullar “Tikinti işləri üçün təbii daşlardan qırma daş istehsalına yararlı xammal” və “Tikinti işləri üçün təbii daşlardan alınan qırma daş” Dövlət standartları tələbinə cavab verir.